# Cahana sığmayan dahi



"Haqq mənəm, Haqqməndədir", "Üzünü məndən nihan etmək dilərsən", "Nəsimi Haqqin səsi", "Apardı könlümü bir çeşmi-məxmur", "Bu miskin aşiqi sər-pa soyarlar", "Cəmalın tələti gülzara bənzər" – mütəfəkkir şairin irsinin yaşadılmasına, təbliğinə xidmət edən bu və digər başlıqlı tədbirlər Ağstafa Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi rayonlarda "Nəsimi ili"nin zəngin proqramından xəbər verir.











Regional idarənin mədəniyyət ocaqlarında şairin qəzəllərinə bəstələnmiş mahnılardan ibarət konsert proqramları, ədəbi-bədii gecələr, dəyirmi masalar, konfranslar təşkil olunub.

***

Ağstafa şəhər Heydər Əliyev Mərkəzində "Nəsimi qəzəlləri" adlı bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqədə 35 nəfər məktəbli iştirak edib. Münsiflərin rəyinə əsasən Nəsimi qəzəllərini ən yaxşı qiraət edən şagirdlərə fəxri fərmanlar təqdim edilib.

Ağstafa rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) filiallarında kitab sərgiləri və bədii qiraət müsabiqələri keçirilib, Nəsimi yaradıcılığından bəhs edən kitablardan ibarət sərgilər təşkil olunub. Fəal oxucular arasında keçirilən qiraət müsabiqəsində fərqlənən şagirdlər rayon Mədəniyyət Mərkəzində təşkil olunan "Haqq mənəm, Haqq məndədir" mövzulu ədəbi-bədii gecədə çıxış ediblər.

Ağstafa rayon Mədəniyyət Mərkəzi və rayon Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə ədəbi-bədii gecə və Nəsimi qəzəllərindən ibarət konsert proqramı keçirilib.

Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi Vüqar Qədirov, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri əvvəlcə "Nəsimi 650" başlıqlı sərgiyə baxıblar. Musiqi məktəbinin zalında Mədəniyyət mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrı üzvlərinin iştirakı ilə "Nəsimi" filmindən dərviş səhnəsi əsasında hazırlanan kompozisiya nümayiş olunub. Sonra təqdim olunan konsert proqramında musiqi məktəbinin müəllimlərdən ibarət ansamblı və ifaçılar şairin müxtəlif qəzəllərindən ibarət muğam və dəsgahlar səsləndiriblər. Bütün ifalar tamaşaçıların alqışları ilə qarşılanıb.

Ağstafa Dövlət Rəsm Qalereyasında "Nəsimi gənc rəssamların gözü ilə" başlıqlı rəsm müsabiqəsi keçirilib. Əsərləri fərqlənən gənclər mükafatlandırılıblar. Rayon Tarix-diyarşünaslıq muzeyində "Əbədiyyət üfüqlərində doğan eşq günəşi" başlıqlı dəyirmi masa təşkil olunub. Çıxış edənlər ölməz şairin yaradıcılığının özünəməxsus cəhətlərindən danışıblar.

***

Ağstafa Regional Mədəniyyət İdarəsinin Qazax rayonu üzrə müəssisələrində də böyük şairin yubileyi və "Nəsimi ili" ilə bağlı tədbirlər gerçəkləşib.

Qazax şəhər Heydər Əliyev Mərkəzində "Nəsimi - haqqın səsi" mövzusunda dəyirmi masa keçirilib. Qazax Dövlət Rəsm Qalereyasında dərnək üzvlərinin iştirakı ilə "Nəsimi 650" başlıqlı müsabiqə təşkil olunub. Qaliblər həmkarlar təşkilatı tərəfindən mükafatlandırılıb.

Qazax rayon MKS və filiallarında Nəsimi yaradıcılığına həsr olunan bədii qiraət müsabiqələri, Uşaq kitabxanasının həyətində kitab sərgisi təşkil edilib. Kitabxananın fəal azyaşlı oxucularının hazırladığı kompozisiya tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Tarix-diyarşünaslıq muzeyində "Cəmalın tələti gülzara bənzər" adlı ədəbi-bədii kompozisiya keçirilib. M.P.Vaqif və M.V.Vidadinin xatirə muzeylərində isə Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş məruzə dinlənilib.

Mədəniyyət mərkəzi ilə 1 və 2 saylı Qazax rayon Uşaq musiqi məktəblərinin birgə hazırladığı ədəbi-bədii gecələrdə də Nəsimi poeziyasından "Ağrımaz", "Hardasan", "Apardı könlümü bir çeşmi-məxmur" və s. şeirlərdən ibarət kompozisiyalar təşkil olunub. Tədbirdə şairin qəzəlləri üstündə muğamlar səsləndirilib.

E.Hüseynov adına Mərkəzi kitabxananın Uşaq şöbəsinin qarşısında "Nəsimi 650" adlı ədəbi-bədii kompozisiya təşkil olunub. Tədbirdə şəhər 1 saylı Uşaq musiqi məktəbinin tar müəllimi Valeh Məmmədovun rəhbərliyi ilə trionun və gənc aşıqların ifasında rəngarəng mahnılar tədbir iştirakçılarının ruhunu oxşayıb.








Məktəblilər şairin "Bəllidir", "Yaxşıdır", "Bitər", "Mənəm, mən" qəzəllərini tarın müşayiəti ilə söyləyiblər. Şagirdlərin Xalq yazıçısı İsa Hüseynovun "Məhşər" əsərindən "İki cahan"ı simvollaşdıran bədii kompozisiyada şairin həyatından səhnələşdirilən fraqmentlər səs-işıq effektlərinin də iştirakı ilə tamaşaçıların marağına səbəb olub.



səhnələşdirdikləri bir parça böyük maraqla qarşılanıb.

***

Regional idarənin Tovuz rayonu üzrə nümayəndəliyinin də "Nəsimi ili"nə maraqlı töhfələri olub. Rayon MKS və filiallarında kitab sərgiləri, fəal oxucuların iştirakı ilə poeziya axşamları, məruzə və mühazirələr keçirilib.

Tovuz rayon Heydər Əliyev Mərkəzində kitab sərgiləri, Dövlət Rəsm Qalereyasında dərnək iştirakçılarının "Nəsimi 650" adlı müsabiqəsi, dəyirmi masa və musiqi məktəblərində şairin qəzəllərindən ibarət muğam konsertləri təşkil olunub.

Tovuz rayon Aşıq Əkbər Cəfərov adına Mədəniyyət mərkəzində ədəbi-bədii gecə keçirilib. Mərkəzin foyesində təşkil olunmuş kitab və rəsm sərgisinə baxışla başlayan tədbirdə Ağstafa Regional Mədəniyyət İdarəsinin rəisi, idarənin məsul işçiləri və rayon ictimaiyyəti iştirak edib.

Gecədə həmçinin ud alətinin müşayiəti ilə şairin qəzəlləri səsləndirilib.

***

Bu il ölkəmizdə ikinci dəfə keçirilən "Bölgələrdən bölgələrə" yaradıcılıq festivalının Ağstafa şəhərindəki təqdimatı da maraqlı olub. Heydər Əliyev parkında keçirilən tədbirdə Mədəniyyət Nazirliyinin təmsilçiləri, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri, həmçinin regional mədəniyyət idarələrinin nümayəndə heyətləri iştirak ediblər.

Parkda Mədəniyyət Nazirliyinin 15 regional idarəsinin festival çadırları qurulub. Tədbir iştirakçıları hər bir regional idarə üzrə şəhər və rayonların mədəni irsini əks etdirən xalq sənətkarlıq nümunələri, rəsm əsərləri, müxtəlif əl işləri ilə maraqla tanış olublar.

Sonra Mədəniyyət Nazirliyinin regional idarələrinin bədii özfəaliyyət kollektivləri, folklor və rəqs qruplarının iştirakı ilə konsert proqramı təqdim olunub.

Sərgi-guşələrlə tanışlıq, həmçinin konsert proqramı regionlardan gəlmiş qonaqlarda, eləcə də yerli ictimaiyyət nümayəndələrində zəngin təəssürat yaradıb.

Rayon sakinləri də bölgələrdə bu cür yaradıcılıq festivallarının keçirilməsini yüksək qiymətləndirərək, bölgələrin rəngarəng mədəni həyatı ilə əyani şəkildə tanış olmağa imkan verən tədbirin təşkilatçılarına minnətdarlıqlarını ifadə ediblər.



Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 22-23.